**AZƏRBAYCAN RESPUBLİKASININ**
**DAXİLİ İŞLƏR NAZİRLİYİNİN KOLLEGİYASI**

# QƏRAR

**№ 3-13/Q9/2025**

**Bakı şəhəri** **25 fevral 2025-ci il**

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Kollegiyasının 2017-ci il 12 may tarixli Q25-001-17 nömrəli qərarı ilə təsdiq edilmiş "Yol-patrul xidməti haqqında Təlimat"da dəyişiklik edilməsi barədə

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli 1134-VIQD nömrəli Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 may tarixli 264s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"nin 5.6-cı bəndini rəhbər tutaraq, Kollegiya

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Kollegiyasının 2017-ci il 12 may tarixli Q25-001-17 nömrəli qərarı ilə təsdiq edilmiş "Yol-patrul xidməti haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.11-ci və 8.6-cı bəndlərdən "hal şahidlərinin iştirakı ilə" sözləri çıxarılsın;

1.2. 10.3.5-ci yarımbənddə "iştirakçıları və iki hal şahidinin iştirakı ilə" sözləri "iştirakçılarının iştirakı ilə fasiləsiz videoçəkiliş aparılmaqla" sözləri ilə əvəz edilsin;

1.3. 10.3.7-ci yarımbəndin üçüncü cümləsindən "və iki hal şahidi" sözləri çıxarılsın;

1.4. 13.14-cü bəndin ikinci cümləsindən "iki hal şahidinin iştirakı ilə" sözləri çıxarılsın;

1.5. Təlimata 17 nömrəli əlavədə "Hal şahidləri:" sözləri "Şahidlər" sözü ilə əvəz edilsin;

1.6. Təlimata 19 nömrəli əlavədən "bu halda iki hal şahidinin iştirakı ilə" sözləri çıxarılsın;

1.7. Təlimata 21 nömrəli əlavə yeni redaksiyada verilsin (əlavə olunur).

2. Qərar qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilsin.

3. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinə tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildikdən sonra 72 saat müddətində rəsmi dərc edilməsi üçün zəruri tədbirlər görülsün.

4. Qərar respublika daxili işlər orqanlarında elan edilsin.

**Kollegiyanın sədri**
**general-polkovnik** **Vilayət Eyvazov**

“Yol-patrul xidməti haqqında Təlimat”a
21 nömrəli əlavə

**Nəqliyyat vasitəsinə baxış haqqında**
**P R O T O K O L**

_________________________________________ “______”____________________ il
(tərtib edildiyi yer) (tarix)

Mən ______________________________________________________________________________
(tərtib edən şəxsin vəzifəsi, rütbəsi, soyadı, adı, atasının adı)

bu protokolu İnzibati Xətalar Məcəlləsinin 93-cü maddəsinin tələbinə müvafiq olaraq ona görə tərtib etdim ki, tərəfimdən __________________________________________

_________________________________________________________________________________
(nəqliyyat vasitəsi sahibinin soyadı, adı, atasının adı, ünvanı)

_________________________________________________________________________________
(baxış keçirilməsi üçün əsas)

_______________________________ markalı, _________________________________ tipli, ________________________________ modeli _______________________________ dövlət qeydiyyat nişanlı, ____________________ VİN olan nəqliyyat vasitəsinə baxış keçirildi.

Nəqliyyat vasitəsinə baxış zamanı fasiləsiz videoçəkilişdən istifadə edildi _____________

Maddi sübutların qeydə alınması zamanı fotoşəkildən də istifadə edilmişdir __________

baxış zamanı aşkar olunan əşyaların eyniləşdirmə əlamətləri ________________________

sənədlərin növü ___________________________________________________________

rekvizitləri _______________________________________________________________

Protokolu tərtib edən şəxsin imzası ________________________________________

Nəqliyyat vasitəsinin sahibinin imzası: _____________________________________

_________________________________________________________________________________